QƏLƏBƏ

İctimai-siyasi qəzet

30 noyabr 2017-ci il, cümə axşamı, № 37-38 (8.477)
Qəzet 1924-cü ildən çıxır

TƏSİSÇİ: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlıq həyata keçirilir

Azərbaycan Prezidenti İlham Əliyev Belçikada işgüzar səfərdə olmuşdur. Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də NATO-nun Baş katibi Yents Stoltenberqin dəvəti ilə alyansın mənzil-qərargahına gəlmişdir.

AZƏRTAC xəbər verir ki, Yents Stoltenberq dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra rəsmi foto çəkdirildi.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və NATO-nun Baş katibi Yents Stoltenberqin görüşü oldu.

Görüşdə Azərbaycanla NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. NATO-nun Baş katibi Yents Stoltenberq ölkəmizin qurumun Kosova və Əfqanıstandakı sülhməramlı missiyalarındakı iştirakını yüksək qiymətləndirdi. NATO-nun Baş katibi Azərbaycanın Əfqanıstana verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev NATO ilə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirdi. Vurğuladı ki, Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda və bu ölkələrin iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak edir.

İDEA İctimai Birliyi növbəti aksiyasını Salyan rayonunda keçirmişdir

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika yaşıllaşdırma" marafonu layihəsi çərçivəsində ağacəkmə aksiyası davam edir. Layihə çərçivəsində Salyan rayonunda növbəti ağacəkmə aksiyası keçirilmişdir.

Ekoloji tədbir Salyan şəhər Heydər Əliyev adına Parkda, rayonun Bayraq Meydanında, magistral yol kənarlarında icra edilmişdir. Aksiya zamanı 1.000 ədəddən çox Eldar şamı və Sərv ağacı əkilmişdir.

İDEA - "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyinin "Ümumrespublika yaşıllaşdırma" marafonu layihəsi çərçivəsində ağacəkmə aksiyası davam edir.

Şahmat üzrə Respublika çempionatının zona yarışlarına yekun vurulmuşdur

Şahmat üzrə respublika çempionatının zona yarışlarının açılış mərasimi Salyan şəhər 2 saylı tam orta məktəbin idman zalında keçirilmişdir. 6 yaş qrupu üzrə keçirilmiş yarışlarda Bakı şəhər 11 nömrəli Uşaq Gənclər İdman Məktəbi, Lənkəran şəhəri, Salyan, Masallı, Biləsuvar, Neftçala, Ağdam və Laçın rayonlarından hər komandadan 12 şahmatçı (6 qız, 6 oğlan) olmaqla 96 nəfər iştirak etmişdir.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov və "Təhsil"

Respublika İdman Mərkəzinin baş məşqçisi Raul Quliyev çıxış edərək idmançılara uğurlar arzulamışlar.

Uşaq Gənclər İdman Şahmat məktəbinin direktoru İlqar İlyasovun verdiyi məlumata görə dairəvi sistem üzrə keçirilən yarışlarda hər yaş qrupundan I və II yerləri tutan şahmatçılar müəyyən edilmişdir. Salyan şahmatçılarından iki nəfər-Aşağı Kürkənd kənd məktəbinin şagirdləri Habil Məlikov və Fatimə Əliyeva öz yaş qruplarında II yer tutaraq dekabr ayında keçiriləcək respublika birinciliyinə vəsiqə qazanmışlar. I yerin qalibləri isə Lənkəran şəhərinin, Biləsuvar, Masallı və Neftçala rayonlarının təmsilçiləri olmuşlar.

Yarışların sonunda qalib gələn şahmatçılar fəxri-fərman və diplomlarla təltif edilmişlər.

12 dekabr ulu öndər Heydər Əliyevin dünyasını dəyişdiyi gündür

İşıqlı əməlləri ilə ürəklərdə əbədi iz salan lider

Ən çətin vəziyyətlərdə qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, insanları milli ideya ətrafında birləşdirmək, onları öz ardınca aparmaq xüsusiyyətləri ilə seçilən şəxsiyyətlər ümummilli liderlik zirvəsinə yüksəlirlər. Belə zirvəyə yüksələn, xalqımızın dünya siyasətinə bəxş etdiyi dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri misilsizdir.

1969-cu ilin 14 iyulunda Azərbaycan KP MK-nın I katibi seçilən Heydər Əliyevin rəhbərliyinin ilk günlərindən respublikada bütün sahələrdə, sözün yaxşı mənasında, inqilab başladığı göz qabağında idi. Gənc, milli ruhlu, enerjili, qətiyyətli bir şəxsin respublika rəhbərliyinə irəli çəkilməsi insanlarda razılıq, məmnunluq doğursa da, iqtisadi böhran, tənəzzül içində yaşayan, keçmiş SSRİ-nin geri qalmış respublikalarından sayılan Azərbaycanda vəziyyətin tezliklə dəyişəcəyinə inanmayanlar da az deyildi. Lakin Heydər Əliyev çevik təşkilatçı, zamanın nəbzini tutan rəhbər kimi sübut etdi ki, istək, iradə, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə də uğura nail olmaq mümkündür. Ulu Öndər respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərdi. Keçmiş SSRİ miqyasında korrupsiya və rüşvətxorluğa, iqtisadi cinayətkarlığa qarşı ilk qətiyyətli mübarizə tədbirlərini də məhz Heydər Əliyev başladı. Ümummilli Lider tez-tez xalq arasına çıxır, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənirdi. Xüsusən də hələ çox tanınmadığı ilk aylarda Heydər Əliyev sərbəst qiyafədə dükan-mağazalarda, istehsal müəssisələrində olur, vəziyyətlə yerindəcə maraqlanırdı. Heydər Əliyevin hələ 70-ci illərdə məmurlar qarşısında müəyyənləşdirdiyi ən ciddi tələb xalqa layiqli xidmət göstərmək, insanların inamını doğrultmaq idi.

1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən şərəfli səhifələrini təşkil edir. Azərbaycan məhz bu illərdə gələcəkdə nail ola biləcəyi müstəqillik üçün etibarlı zəmin formalaşdırmışdı. Ulu Öndər 1982-ci ildən sonra fəaliyyətini Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin müavini kimi davam etdirməli olsa da, qanı, canı ilə bağlı olduğu respublikanı unutmadı. 1982-1987-ci illərdə respublikamızın sosial-iqtisadi, mədəni inkişafı üçün əlindən gələni əsirgəmədi.

Ötən əsrin 80-ci illərinin sonlarına yaxın bədnam qonşularımız imperiya rəhbərliyinin himayəsi altında Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar. Bütün bunlara göz yuma bilmədiyi üçün SSRİ rəhbərliyindən istefaya göndərilən Heydər Əliyev hətta təqaüddə olarkən də millətinin ağır günündə haqq səsini ucaltmaqdan çəkinmədi. 1990-cı ilin Qanlı Yanvarından dərhal sonra ailəsi ilə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələn bu fenomenal şəxsiyyət xalqının faciəsinə vətənpərvərliklə reaksiya verdi, dərdinə şərik çıxdı.

1991-ci ildə müstəqilliyinə yenicə qovuşmuş Azərbaycanda vəziyyət çox ağır idi. Bütün sahələrdə tənəzzül hökm sürürdü. 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, bir sözlə, dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün qətiyyəti ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasətin yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək İlham Əliyev kimi qüdrətli lider yetişdirməsindədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə son 14 ildə bütün sahələrdə möhtəşəm uğurlara imza atılmışdır. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu müstəqil Azərbaycanı ölkə başçımız İlham Əliyev daha da möhkəmləndirmiş, inkişaf etdirmişdir. Dövlətimizin başçısı hər cür xarici təsirə, çirkin kampaniyaya, qarayaxmaya sinə gərmiş, heç zaman güzəştə getməmişdir. Cənab Prezident dəfələrlə bəyan etmişdir ki, yürütdüyü müstəqil siyasət və dövlətimizin milli maraqları heç bir halda kənar diktəyə məruz qalmayacaqdır. Hansı siyasi cəbhədə yer almaq isə Azərbaycanın müstəqil dövlət olaraq öz seçimidir və bu müzakirə predmeti ola bilməz.

Ölkəmizdə qlobal əhəmiyyətli beynəlxalq tədbirlərin, I Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının, "Eurovision" mahnı müsabiqəsi kimi mühüm tədbirlərin yüksək səviyyədə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artırmışdır.

2011-ci il oktyabrın 24-də dünyanın 155 dövlətinin dəstəyi ilə Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi tarixi hadisədir. Qeyd edək ki, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda belə bir yüksək uğura imza atan ilk ölkədir. Tarixi İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası Azərbaycanın regionda lider dövlət olaraq mövqelərini daha da möhkəmləndirmişdir. Azərbaycan orbitə çıxardığı iki peyki ilə dünya kosmos ailəsinin tərkibinə daxil olmuşdur. Ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində Azərbaycan xalqının milli sərvəti sayılan Muğam, aşıq musiqisi və Novruz bayramı UNESKO-nun bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilmişdir.

İşıqlı əməlləri ilə heç vaxt yaddan çıxmayacaq, daim xatırlanacaq ümummilli lider Heydər Əliyevin ruhu bu gün şaddır. Çünki onun şah əsəri olan müstəqil Azərbaycan dövləti günü-gündən inkişaf edir, getdikcə daha güclü, daha qüdrətli olur.

Əzizağa MƏMMƏDLİ.

Akademik Həsən Əliyev - 110

İnsana, təbiətə bağlı olan alim

Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı olmuşdur. Sərəncamda deyilir ki, coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, respublikanın Əməkdar elm xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı Kənd Təsərrüfatı elmləri doktoru, professor Həsən Əlirza oğlu Əliyev Azərbaycanın torpaq coğrafiyası, təbiəti mühafizə problemləri üzrə görkəmli mütəxəssis, coğrafiya elminin təşkilatçılarından biri, ölkəmizdə qoruqların, yasaqlıqların, təbiəti mühafizə təşkilatlarının yaradılmasında, kadr hazırlığında, xüsusi ekoloji problemlərin tədqiqində, təbliğatında əvəzsiz xidmətləri olmuş bir alimdir.

Həsən Əliyev 1907-ci il dekabr ayının 15-də Qərbi Azərbaycanın Zəngəzur qəzasının Comərdli kəndində anadan olmuşdur. 1917-1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində Zəngəzur mahalının bütün əhalisi kimi, Əlirza kişinin ailəsi də Naxçıvan şəhərinə deportasiya olundu. Təhsilə, elmə böyük marağı olan Həsən Əliyev orta məktəbi və Kənd Təsərrüfatı Texnikumunu Naxçıvanda bitirdikdən sonra 1930-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra isə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun aspiranturasında təhsilini davam etdirir.

1934-cü ildə təhsilini başa vuran 27 yaşlı gənc alim Həsən Əliyev Pambıqçılıq İnstitutunun Ucar rayonundakı Şirvan zona təcrübə stansiyasının direktoru vəzifəsinə təyin edilir. 2 il orada işlədikdən sonra Həsən Əliyev SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Torpaqşünaslıq bölməsinə elmi işçi vəzifəsinə işə qəbul edilir və eyni zamanda, həmin bölmənin elmi katibi vəzifəsini icra edir.

Böyük Vətən müharibəsi illərində 3 il döyüş meydanlarında olan Həsən Əliyev Şimali Qafqazda alman işğalçıları ilə qızğın döyüşdə ağır yaralanır və Bakıya qayıdır. Uzun sürən müalicədən sonra o, yenidən elmi fəaliyyətini davam etdirməyə başlayır. 1945-49-cu illərdə Pedaqoji İnstitutun coğrafiya fakültəsində baş müəllim işləyir. "Böyük Qafqazın torpaqları və ondan səmərəli istifadə yolları" adlı doktorluq dissertasiyası müdafiə edən Həsən Əliyev torpaqşünaslıq üzrə keçmiş post-sovet məkanında ən qüdrətli alimlərdən biri idi.

Həsən Əliyevin təşkilatçılıq qabiliyyətini və elmi potensialını nəzərə alaraq onu daha məsul vəzifələrə irəli çəkmişlər. O, 1946-1962-ci illərdə Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Azərbaycan filialının sədri olmuşdur. 1949-cu ildə o, Azərbaycan EA Botanika İnstitutunun direktoru vəzifəsinə təyin edilir. 1950-ci ildə Həsən Əliyevin sinəsini "Şərəf nişanı" ordeni bəzədi. Həsən Əliyev kənd təsərrüfatı elminin müxtəlif sahələrini hərtərəfli bilməsi və yüksək təşkilatçılığa malik olması sayəsində 1952-ci ildə Azərbaycan Kənd Təsərrüfatı nazirinin müavini və həmin il Azərbaycan KP MK-nın katibi vəzifələrinə irəli çəkilir. Həmin dövrdə Respublika Elmlər Akademiyasının həqiqi üzvü seçilir.

1968-ci ildən 1987-ci ilə kimi akademik Həsən Əliyev Respublika Elmlər Akademiyasının geniş elmi profilli ən iri institutlarından birinə - Coğrafiya İnstitutuna başçılıq etmişdir. Onun rəhbəri olduğu institut 19 il ərzində daha da inkişaf etmiş, elmi kadr potensialı artmışdır.

Akademik Həsən Əliyev 1993-cü ildə ömrünün 86 illik zirvəsində dünyasını dəyişmişdir. Lakin onun qoyub getdiyi irs Azərbaycan elmini zənginləşdirməkdə hələ də davam edir. Alimin tələbələri, ondan dərs almış gənc mütəxəssislər bu gün Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrində səmərəli fəaliyyət göstərirlər.

Rüstəm MƏLİKOV,
"Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri.

Ölkəmizi tanıyaq

Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

16 noyabr 2017-ci il tarixində Salyan rayonunun ümumtəhsil məktəblərinin 40 nəfər şagirdi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici turaksiya çərçivəsində Gəncə-Göygöl-Şəmkir marşrutu üzrə 4 günlük ekskursiyaya yola düşmüşdür.



Tur-aksiyanın iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, valideyn və müəllimlərin iştirak etdikləri yolasalma mərasimində rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək, ölkəmizdə yeniyetmə və gənclərin hərtərəfli inkişafı üçün yaradılmış şəraitdən, onlara göstərilən yüksək dövlət qayğısından bəhs etmiş, belə layihələrin yeniyetmə və gənclərin dünyagörüşlərinin zənginləşməsində mühüm rol oynadığını vurğulamış, onlara bu aksiyada uğurlu yol və xoş istirahətlər arzulamışdır.

Sonra tur-aksiya iştirakçıları onlar üçün ayrılmış xüsusi avtobusla yola düşmüşlər.

Məktəblilərin Nizami yurdu ilə tanışlığı Heydər Əliyev Park Kompleksindən başlayıb. Məktəbliləri Zəfər Tağı önündə Gəncə Şəhər Təhsil İdarəsinin rəisi Zakir Hüseynov, şəhər icra hakimiyyəti aparatının və ictimaiyyətin nümayəndələri, Gəncə Şəhər Uşaq Yaradıcılıq Mərkəzinin rəqs kollektivinin üzvləri qarşılayıblar. Rəqqaslar qonaqlar qarşısında maraqlı rəqs nümunələri ilə çıxış edib, yeni hazırladıqları fləşmobu göstəriblər. Sonra şagirdlərə tur-aksiya çərçivəsində tanış olacaqları məkanlardan bəhs edən Gəncənin bələdçi kitabları paylanılıb. Məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı məqamlarını, Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən foto və sənədlərlə tanış olublar.

Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi Muzeyinə gəliblər. Bildirilib ki, muzeyin binasının təməli 2013-cü ildə qoyulub. Bundan bir il sonra Prezident İlham Əliyevin Gəncəyə növbəti səfəri zamanı muzey istifadəyə verilib.

Müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan "İmamzadə" dini kompleksi ilə tanışlıq da şagirdlər üçün maraqlı keçib. Məlumat verilib ki, bu müqəddəs məkanda 739-cu ildə beşinci İmam Məhəmməd Bağırın oğlu Mövlanə İbrahim dəfn edilib. "İmamzadə" ziyarətgahı əsrlər boyu insanların üz tutduğu müqəddəs məkanlardandır. Prezident İlham Əliyevin təşəbbüsü ilə ziyarətgahda geniş abadlıq-quruculuq və yenidənqurma işləri həyata keçirilib.

Tur-aksiya iştirakçıları daha sonra Məhsəti Gəncəvi adına mədəniyyət mərkəzinə gəliblər. Mədəniyyət ocağı ilə tanışlıq zamanı bildirilib ki, mərkəz Heydər Əliyev Fondunun dəstəyi ilə tikilib. Sonda tur-aksiya iştirakçıları Prezident İlham Əliyev tərəfindən yenicə istifadəyə verilmiş Mirzə Şəfi Vazeh muzeyinə və şairin adını daşıyan parka gəliblər.

Rayonla tanışlıqlarını başa vuran tur-aksiya iştirakçıları 2-ci gün Şəmkirə səfər ediblər. Məktəblilərin rayonla tanışlığı orta əsr Şəmkir qalasından başlayıb.

Sonra Şəmkir şəhərinin mərkəzinə gələn məktəbliləri Heydər Əliyev Mərkəzinin qarşısında rayon rəhbərliyi qarşılayıb. Qonaqları Mərkəzdə, əvvəlcə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev salamlayıb. Əvvəlcə tur-aksiya iştirakçılarına Heydər Əliyev Mərkəzi haqqında məlumat verilərək bildirilib ki, bina orijinal memarlıq üslubunda inşa edilib. Şagirdlər Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin irsini əks etdirən fotoşəkillərə, Ümummilli Liderə həsr olunan kitablara baxıblar. Məktəblilər Şəmkirdə vaxtilə alman koloniyaçıları tərəfindən inşa olunan Lüteran kilsəsi ilə də tanış olublar. Onlara Şəmkirin əsasını qoyan alman koloniyaçıları haqqında geniş məlumat verilib.

Tur-aksiya iştirakçıları Göygöl rayonuna da gəliblər. Qonaqları şəhər mərkəzində Göygöl Rayon İcra Hakimiyyətinin, mədəniyyət və turizm şöbəsinin əməkdaşları, həmçinin şəhər ictimaiyyətinin nümayəndələri qarşılayıblar. Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə İbrahimova tur-aksiya iştirakçılarını salamlayıb, məktəblilərə xoş səfər təəssüratları arzulayıb.

Tur-aksiya iştirakçıları şəhərlə tanışlığa Heydər Əliyev Mərkəzindən başlayıblar. Məktəblilər IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən ağacəkmə aksiyasına qoşulub, Heydər Əliyev Mərkəzinin ətrafında şam ağacları əkiblər.

Azərbaycan Dövlətinin Rəmzləri Muzeyi ilə tanışlıq da maraqlı keçib. Tur-aksiya iştirakçılarının rayonla tanışlığı çərçivəsində səfər etdikləri sonuncu məkan füsunkar təbiət möcüzəsi - Göygöl olub.

Tur-aksiya iştirakçıları zəngin təəssüratla rayonumuza qayıtmışlar.

Qabaqcıl müəllimlər təltif olundu

Salyan şəhər Ə.Kürçaylı adına 7 saylı texniki fənlər təmayüllü məktəb-liseydə qabaqcıl müəllimlərin təltif olunması mərasimi keçirilmişdir.

Salyan rayon təhsil şöbəsinin müdiri Xudaverdi Piriyev bu təhsil ocağının novatorluq ənənəsindən danışaraq qeyd etmişdir ki, uzun illərdir 7 saylı məktəb tədrisin keyfiyyətinə görə fərqlənmiş, müəllimlər həyata ən mükəmməl, bilikli mütəxəssislər hazırlamaqda ali təhsil ocaqlarına savadlı məzunlar göndərmişlər. İndi bu məktəbin məzunları ölkənin ən aparıcı sahələrində, ən məsuliyyətli vəzifələrdə çalışırlar.

Şöbə müdiri bildirmişdir ki, məktəbin riyaziyyat müəllimi Ehtimal Nadir oğlu Əhmədov Təhsil Nazirliyi tərəfindən yüksək qiymətləndirilmiş, ona cənab nazir Mikayıl Cabbarovun imzaladığı səərəncamla təltif edilmiş "Qabaqcıl təhsil işçisi" döş nişanı təqdim edilmişdir.

Məktəbin tarix müəllimi Saleh Nadir oğlu Ağayevə isə təhsildə qazandığı nailiyyətlərə görə Təhsil Nazirliyinin Fəxri Fərmanı verilmişdir.

Mərasimdə qeyd edilmişdir ki, hər iki müəllim gənc nəslin savadlı, bilikli böyüməsi üçün əllərindən gələni əsirgəməyənlərdəndir. Uzun illər bu elm ocağında qazanılan nailiyyətlərə öz töhfəsini vermiş Ehtimal müəllim və Saleh müəllim təltifə görə təhsil nazirinə, rayon rəhbərliyinə və rayon təhsil şöbəsinə minnətdarlıqlarını bildirmiş, bundan sonra da yüksək dünyagörüşünə malik, bilikli, savadlı vətəndaş yetirmək işində var qüvvə ilə çalışacaqlarını söyləmişlər.

Məktəbin direktoru Arzu Daşpoladova təhsil ocağının pedaqoji kollektivi adından qabaqcıl müəllimləri təbrik etmiş, onlara cansağlığı, təhsildə yeni uğurlar arzulamışdır. Sonra məktəbin ibtidai sinif müəllimi Tahirə xanım Abdullayevanın da 60 illik yubileyi münasibətilə təbriklər səsləndirilmişdir.

Şagirdlər öz müəllimlərinə gül-çiçək dəstələri təqdim etmişlər.

"Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfrans

Yeni Azərbaycan Partiyasının inzibati binasının akt zalında İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən " "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfrans keçirilmişdir. Tədbirin məqsədi və məramı barədə məlumat verən rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova maarifləndirmə baxımından konfransın əhəmiyyətini xüsusi olaraq vurğulamışdır. Təranə xanım rayon əhalisinin keyfiyyətli məhsullarla təmin olunması, süni qiymət artımının, digər neqativ halların qarşısının alınması istiqamətində görülən işlərdən, keçirilən məqsədyönlü, zəruri tədbirlərdən söz açmışdır.

Konfransın yüksək səviyyədə təşkilinə görə rayon rəhbərliyinə minnətdarlığını bildirən ASİHMDX rəisinin müavini Araz Əliyev ölkə başçısının tapşırığına əsasən, bölgələrdə seminarların, müşavirələrin, konfransların keçirildiyini qeyd etmiş, ümummilli lider Heydər Əliyevin 19 sentyabr 1995-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "İstehlakçı hüquqlarının qorunması haqqında" Qanunun, digər qanunvericilik aktlarının hər bir istehlakçının hüquqlarının etibarlı şəkildə müdafiəsinin hüquqi əsasını təşkil etdiyini diqqətə çatdırmışdır.

İnsanların sağlamlığında sanitar-gigiyenik baxımdan yararlı, keyfiyyətli, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının önəmli rol oynadığını vurğulayan ASİHMDX-nin şöbə müdiri Kamran Umudov, sektor müdiri Yusif Hüseynov, Aran regional bölməsinin müdiri Əfqan Əliyev hər bir istehlakçının, istehsalçının, sahibkarın, satıcının öz hüquqlarını dərindən bilmələrinin vacibliyini bildirmişlər. Qeyd etmişlər ki, istehlakçı istehsalçıdan, sahibkardan pozulmuş hüquqlarının bərpasını tələb etdikdə bu tələbə qarşı mənfi münasibət göstərildiyi halda, onun müvafiq dövlət orqanlarına, aidiyyəti qurumlara müraciət etmək hüququ vardır.

RİH başçısının müavini Təranə İsmayılova konfransa yekun vurmuşdur.

Camışçılıq inkişaf etdirilərsə...

Sovet dönəmində Salyanda camışçılıq təsərrüfatı ilə daha çox rayonun Şorsulu kəndinin əhalisi məşğul olurdu. Demək olar hər evdə 10-12 baş camış saxlanılırdı ki, bunun da ətindən, südündən, qatığından və digər məhsullarından istifadə edilirdi. Lakin illər sonra kənddə camışçılığa meyl və maraq get-gedə azalmağa başladı.

Kənd sakini Cabbar Əliyev deyir ki, vaxtı ilə kolxoz dövründə otlaq sahələri vardı. Pambıq, taxıl, yonca sahələri əkilib, məhsulu götürüləndən sonra yerində qalan yem bazası camış sahiblərini təmin edərdi. Demək olar ki, mən camışın südü ilə, camışın qaymağı ilə böyümüşəm. Son 10-15 ilə qədər bu qapıda həmişə camış olub. Çox xeyirlidir, camışın südü, qatığı, qaymağı, başqa heyvanların süd məhsullarından fərqlənir. Yağı insan orqanizminə çox xeyirlidir. Camış yağı yeyən insan xəstələnmir. Mən 50 yaşıma qədər iynə vurdurmamışam.

Digər kənd sakini Yaşar Aslanov qeyd etdi ki, ləğv elədik, bir dənə də qalmadı. Saxlamağa otlaq yeri yoxdur. Həm istiyə, həm də soyuğa dözümsüz heyvandı.

Yerli sakinlərin sözlərinə görə, isti günlərdə həm durğun sularda, həm də bataqlıq və gölməçələrdə uzanmağı sevən camış üçün artıq kənddə belə bir şərait yoxdur. Odur ki, vaxtı ilə 1000 başdan çox camışı olan yaşayış məntəqəsində indi onların barmaq qədər sayı qalıb.

Mütəxəssis Fuad Qəhrəmanov deyir ki, şaxtaya o qədər dözümü olmayan camışın digər heyvanlarla müqayisədə bir sıra üstünlükləri də var. Gün ərzində 4-5 kiloqram sağılan camış südünün orta yağlılığı 8 faizdən çox olur. 1 kiloqram yağ əldə etmək üçün 24 kiloqram inək südü lazım gəldiyi halda, buna 12 kiloqram camış südü kifayət edir.

Bruselliyoz, dabaq və digər xəstəliklərə camış yoluxmur. Bunun əti xolesterinsizdir, dadlıdır, qaraciyər xəstələri üçün çox əhəmiyyətlidir.

Bu sahədə təcrübəsi olanlar hesab edir ki, camışçılıq təsərrüfatını dirçəldib genişləndirmək üçün otlaq sahələri ayrılıb uzunmüddətli güzəştli kreditlər verilərsə, bu sahənin inkişaf etdirilməsinə əhalinin marağını daha da artırmaq olar.

Təyyar NƏSİRLİ.

Pambıqçı qadın

60 yaşlı Qızbəs İbrahimova 45 ildir ki, pambıqçılıqla məşğul olur. Bu sahəyə olan marağı, sevgisi hətta pambıqçılığa maraq azalanda belə səngiməyib. Son illər ölkə başçısının pambıqçılığa göstərdiyi diqqət və qayğı onda da böyük ruh yüksəkliyi yaradıb. Əkindən tutmuş məhsul yığımı qurtaranadək Qızbəs İbrahimovanı tarlada görmək olar. Yaşının ahıl vaxtı olmasına baxmayaraq, hər gün 120-125 kiloqram məhsul toplayır.

Qızbəs İbrahimova pambıq yığımı başlanan gündən indiyə kimi tək başına 10 tona yaxın məhsul toplayıb. Min bir əzab-əziyyətlə araya-ərsəyə gətirdikləri məhsulu isə son qozasınadək yığmağı qarşıya məqsəd qoyub.

Pambıqçı Qızbəs İbrahimova deyir ki, yığıma başlayanda söz vermişdik ki, məhsulu son qozasınadək yığıb təhvil verək. Sözümüzün üstündə duracağıq.

Elə bu üzdən Xocalı, Ərəbqardaşbəyli, Beştalı, Cəngən kəndlərini özündə birləşdirən Kürqaraqaşlı kənd ərazi vahidliyi pambıq yığımında birinci yerdə gedir. Bu il 345 hektarda pambıq əkilən ərazi vahidliyində 1350 ton məhsul yığımı proqnozlaşdırılıb. İndiyə kimi 1330 ton "ağ qızıl" yığılaraq pambıq zavoduna təhvil verilib. Proqnoz artıq reallaşıb. Bunu rəqəmlərdən də görmək olar. Məhsul yığan əllərniz var olsun, əziz tarla bahadırları.

Salyan rayonunda ərazilər üzrə pambıq yığımı barədə 29 noyabr 2017-ci il tarixinə olan məlumat

Sıra sayı	Ərazilər	Əkin sahəsi (ha)	Nəzərdə tutulmuş məhsul (ton)	Gündəlik yığım (ton)	Mövsümün əvvəlindən yığım (ton)	Yığılmış məhsul (faiz)	Orta məhsuldarlıq (sentner)
1.	Kürqaraqaşlı	545,9	1350,0	3,6	1251,8	92,7	22,9
2.	Həsənli	223,0	450,0	0,0	405,3	90,1	18,2
3.	Qızılağac	728,4	1600,0	6,9	1300,0	81,3	17,8
4.	Kürsəngi	265,0	300,0	3,8	241,1	80,4	9,1
5.	Arbatan	370,1	750,0	4,6	566,2	75,5	15,3
6.	Şorsulu	502,7	1150,0	0,8	846,8	73,6	16,8
7.	Sarvan	1028,3	2200,0	7,9	1430,3	65,0	13,9
8.	Qaraçala	163,5	300,0	0,0	157,7	52,6	9,6
9.	Yenikənd	183,9	350,0	0,0	178,2	50,9	9,7
10.	Aşağı Noxudlu	290,0	600,0	1,1	278,0	46,3	9,6
11.	Marışlı	501,4	1050,0	2,3	468,8	44,6	9,3
12.	Xalac	255,0	500,0	0,0	222,6	44,5	8,7
13.	Yolüstü	141,0	280,0	0,0	120,2	42,9	8,5
14.	Varlı	146,7	150,0	3,0	56,6	37,7	3,9
15.	"Hacı Camalxan"	400,0	400,0	2,4	150,7	37,7	3,8
16.	Kərimbəyli	60,0	120,0	0,0	43,6	36,3	7,3
17.	Çuxanlı	670,5	1350,0	4,9	483,0	35,8	7,2
18.	Parça-Xələc	174,1	300,0	1,7	103,3	34,4	5,9
19.	Xıdırlı	50,0	50,0	2,1	17,2	34,4	3,4
20.	Qarabağlı	352,9	750,0	2,1	244,1	32,5	6,9
	Rayon üzrə	**7052,4**	**14000,0**	**47,2**	**8565,5**	**61,2**	**12,1**

Cəza siyasətində yeni mərhələ

Firdovsi NEMƏTLİ,
Salyan rayon prokuroru,
baş ədliyyə müşaviri.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələdə uğurlu davamıdır.

Sərəncamın məqsədi cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasıdır.

Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına, o cümlədən, Cinayət Məcəlləsinə 20 oktyabr 2017-ci il tarixli Qanunla edilən 300-ə yaxın dəyişiklik möhtərəm Prezidentimizin adıçəkilən sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi mərhələlərindən biridir.

Cinayət Məcəlləsinə edilən dəyişikliklərlə bəzi maddələr, o cümlədən ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma (131. 1-ci maddə), aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma (184-cü maddə), telefon xəttinə qanunsuz daxil olmaqla danışıqlar aparma (189-cu maddələr) ləğv edilərək həmin maddələrdə nəzərdə tutulan əməllər cinayət hesab edilmir.

Məcəllənin bəzi maddələrində cinayət törətmiş şəxslərin məsuliyyətini ağırlaşdıran hallar kimi nəzərdə tutulan müddəalar ləğv edilir. Belə ki, qüvvədə olan Cinayət Məcəlləsinə görə, əvvəllər oğurluq, soyğunçuluq, mənimcəmə və s. cinayətlərə görə iki dəfə məhkum olunan şəxs yenidən eyni xarakterli cinayət törətdikdə onların əməli başqa ağırlaşdırıcı əlamətlər olmasa da, ağır cinayət kimi qiymətləndirilirdi. Məcəlləyə edilən dəyişiklərlə bu müddəa aradan qaldırılır.

Cinayət Məcəlləsinə "azadlığın məhdudlaşdırılması" kimi yeni cəza növü əlavə edilmişdir. Həmin cəza məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarətdir. Məhkəmə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş məhkumun yaşayış yerini (tamamilə və ya günün ayrı-ayrı vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsinə məhdudiyyət qoyur.

Cəza siyasətinin humanistləşdirilməsinə yönələn yeniliklərdən biri də CM-nin 59-cu maddəsində nəzərdə tutulan, cinayət törətmiş şəxsin məsuliyyətini yüngülləşdirən hallara yenilərinin əlavə olunmasıdır. Belə ki, cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərilməklə onun həyat və sağlamlığına dəyə biləcək zərərin azaldılması, zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi, cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması, cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi zamanı cinayət törətmiş şəxslərə qanunla nəzərdə tutulan cəzanın yuxarı həddinin dörddə üçündən çox olmayan cəza verilməsi nəzərdə tutulur.

Cinayət Məcəlləsinə edilən mühüm dəyişikliklərdən biri də mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində cinayət törətmiş şəxslərlə bağlıdır. Belə ki, CM-ə əlavə edilmiş 73-1 və 73-2-ci maddələrlə həmin kateqoriyadan olan bəzi cinayətləri törətmiş, cinayət nəticəsində dəymiş ziyanı ödəmiş və zərərçəkmiş şəxslə barışmış şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Törədilmiş cinayətlər nəticəsində xeyli miqdarda ziyan vurulduqda, həmin ziyan qədər dövlət büdcəsinə ödəniş etmiş şəxslər də cinayət məsuliyyətindən azad ediləcəklər. Zərərçəkənə külli miqdarda ziyan vurmuş şəxslərin vurduqları ziyanın iki misli qədər dövlət büdcəsinə ödəniş edəcəkləri təqdirdə məsuliyyətdən azad edilməsi mümkün olacaqdır.

Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydində edilən dəyişikliyə əsasən ağırlaşdırıcı hallar olmadıqda, əməlin cinayət hesab edilməsi üçün talanmış əmlakın dəyəri 100 manatdan 500 manata qaldırılır. "Xeyli miqdar" dedikdə, beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, "xüsusilə külli miqdar" dedikdə isə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür. "

Cinayət Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri də narkomaniya xəstəliyinə düçar olmuş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi ilə bağlıdır. Məcəlləyə əlavə edilmiş 74-1-ci maddəyə görə, satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmiş və saxlamış, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv olunduqda, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir.

Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə (Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) əlavə edilən qeydlə 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

Dəyişikliklərə əsasən, Cinayət Məcəlləsinin 263.1 (Yol hərəkəti və nəqliyyatın istismarı qaydalarını pozma)və ya 263.1-1-ci (Yol hərəkəti və nəqliyyatın istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma) maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

CM-nin 306-cı (Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) maddəsinə əlavə edilən qeydə əsasən şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini məhkəmə tərəfindən hökm çıxarılanadək tam icra etdikdə cinayət məsuliyyətindən azad olunur.

Azərbaycan dövlətinin cinayət hüququ və cəza siyasətində yeni mərhələ olan bu fundamental dəyişikliklər hüquqi ictimaiyyət və bütün cəmiyyət tərəfindən böyük razılıqla qarşılanıbdır. Ümid edirik ki, bu humanist yanaşma və zamanın ruhuna uyğun yeni cəza siyasəti cinayətkarlığa qarşı mübarizə işində müsbət nəticələr əldə edilməsinə səbəb olacaqdır.

Ustad aşıq Bəylər Qədirovun 100 illik yubileyi qeyd edilmişdir

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında aşıq Bəylər Qədirovun 100 illiyinə həsr edilən ədəbi-bədii tədbir keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə reallaşan tədbirdə respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri, həmçinin Salyan Rayon İcra Hakimiyyətinin məsul işçiləri, ziyalıları və aşığın yaxın qohumları, onunla dostluq etmiş insanlar iştirak etmişlər.

Mərasimdə Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar Elm Xadimi Məhərrəm Qasımlı aşığın həyat və yaradıcılığından danışmışdır. O, diqqətə çatdırıb ki, Salyan rayonunun Çuxanlı kəndində dünyaya göz açan Bəylər Qədirov gənc yaşlarından aşıq sənətinin sirlərinə yiyələnib, yüksək ifaçılıq bacarığı və istedadı sayəsində tezliklə tanınıb. Onun ifası respublikamızın nüfuzlu konsert salonlarında sevilə-sevilə dinlənilib. Aşığın ifa etdiyi saz havaları onu İran və Türkiyədə də məşhurlaşdırıb.

Qeyd edilib ki, B.Qədirov ustadnamə, müxəmməs, gözəlləmə kimi aşıq şeiri janrlarında nümunələrin və bir neçə dastanın müəllifi kimi də tanınır. Onun 1966-cı ildə ifa etdiyi "Abbas və Gülgəz" dastanı Azərbaycan Radio Komitəsinin səsyazma studiyası tərəfindən lentə alınıb. Həmin səs yazısı Azərbaycan Radiosunun "Qızıl Fond"unda saxlanılır. Həmçinin aşıq Bəylər "Peyvənd şikəstə", "Kərəmi", "Peşron"un mahir ifaçısı kimi sevilən sənətkarlardandır. Onun müəllifi olduğu "Kəndimiz" mahnısı bu gün də ölməzdir. Aşıq Bəylərin repertuarında əsas yer tutan "İbrahim peşrosu", "Şəşəngi", "Döymə Kərəmi", "Ordubadi", "Şakir gözəlləməsi", "Qara qafiyə", "Göyçə gülü", "Təxnis", "Aran gözəlləməsi", "Kərəmi", "Koroğlu misrisi", "Peyvəndi" şikəstəsi, "Şirvan şikəstəsi" bu gün də yaddaşlarda yaşayır. Onların xeyli hissəsi radionun "Qızıl Fond"unda saxlanılır və efirdə səsləndirilir. Bəylər Qədirovun onlarca yetirməsi hazırda aşıq sənətinin inkişafı və təbliği istiqamətində fəaliyyət göstərir.

Sonra söz sazlı-sözlü qonaqlara verilmişdir. Əməkdar incəsənət xadimi Aşıq Əhliman, Əməkdar mədəniyyət işçisi Ağamurad Şirvanlı, aşıqlardan Əli Tapdıqoğlu, Gözəl Kəlbəcərli, Vüqar Mahmudoğlu, Rza Məmmədov, həmçinin Xalq artisti Ağacəbrayıl Abasəliyev və başqaları ustad aşığın mahnılarını ifa etmiş, onun haqqında xatirələrini söyləmişlər.

Çıxış edənlər vurğulayıblar ki, Aşıq Bəylər Qədirov respublika və beynəlxalq səviyyəli tədbirlərdə ölkəmizi uğurla təmsil edib. O, Azərbaycan Aşıqlarının II və III qurultaylarının, Moskvada keçirilmiş "Azərbaycan mədəniyyəti günləri" ongünlüklərinin iştirakçısı olub. Xalq yaradıcılığı sahəsində xidmətlərinə görə diplom, Fəxri fərman, digər mükafat və təltiflərə layiq görülüb.

Çıxış edənlər aşığın ömür yolundan, habelə sənət fəaliyyəti və insani keyfiyyətlərindən söz açıblar. Tədbir respublikanın tanınmış aşıqlarının ifasında konsert proqramı ilə davam edib.

Qəhrəmanlıq tariximizin gənc nəslin vətənpərvərlik tərbiyəsində rolu

Öncə Vətəndir

Vətən! Bu söz ana qədər doğma, ana qədər əzizdir. Yaşamı, varlığı ilə bu torpağı tarixin ən qədim insan məskənlərindən birinə çevirən xalqımız sədd çəkdikləri, bina etdikləri, dövlət qurduqları, adına Azərbaycan dedikləri yurdu müqəddəs saymış, ona "Ana Vətən" demişlər. Ona görə də vətənpərvərlik bizə ana südündən, ata öyüdündən keçib. Bu, milli mənlik şüurumuzun ilk kodlarından biridir. Vətənpərvərlik hissinin bu qədər yüksək olması Azərbaycan xalqının tarixən malik olduğu ən böyük milli hissdir. Onun əsasını xalqın tarixi yaddaşı, minillik ənənələri, azərbaycançılıq konsepsiyası, tolerantlıq, etiqad azadlığı və multikulturalizm prinsipləri təşkil edir.

Buna görə də vətənpərvərlik doğma yurda, dilimizə və mənəvi dəyərlərimizə olan sevginin təzahürü kimi malik olduğumuz ən yüksək insani keyfiyyətlərimizdən biridir. Təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Vətənpərvərlik hissi olmayan insanın mənəviyyatı yoxdur".

Fikir, düşüncə, söz insanları zamanzaman Vətən və vətənpərvərlik, yurdsevərlik haqqında qiymətli fikirlər söyləmiş, insanların milli mənlik şüurunun formalaşmasında bu amilin çox böyük rol oynadığını vurğulamışlar. Türk xalqının böyük mütəfəkkiri Əli bəy Hüseynzadə yazırdı: "Nə qoydular uyuyaq, nə qoydular oyanaq". Məhəmmədhüseyn Şəhriyar isə "Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!"-deyərək Vətənin dərdlərindən danışırdı. Klassik şairlərimizdən Abbas Səhhət "Vətən əcdadımızın mədfənidir, Vətən övladımızın məskənidir",-demişdir, Məmməd Araz isə fikrini "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi ifadə etmiş və əgər Vətən ona oğul desə, "mamır olub qayasında bitməyə" hazır olduğunu bəyan etmişdir. Bu gün də təmasda olduğumuz hər kəs-istər tarixçi, istər sənət adamı, istərsə də hərbçi və ya jurnalist birmənalı olaraq bildirirlər ki, vətənpərvərlik insanların qan yaddaşına həkk olunmuş hisslərdir. Vətəni sevmədən, onu qorumadan, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan vətənpərvər yetirmək olmaz.

Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Cəlil Xəlilovun fikrincə, "Vətənpərvərlik insanı formalaşdıran, doğma yurduna, dilinə, mənəvi dəyərlərinə olan sevginin təzahürüdür. Vətənpərvərlik hissləri nəsildən-nəslə ötürülür, milli şüurun səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir, yazarların, şairlərin, bəstəkarların və rəssamların yaratdıqları əsərlərə hopur və beləliklə, Vətən haqqında nəğmələr, əsərlər yaranır".

"Jurnalist Ekspert Mərkəzi" ictimai birliyinin sədri, yazar Ceyhun Musaoğlu isə deyir ki, vətənpərvərlik milli mənliyi təşkil edən hisslər komponentinin tərkibindədir. Vətənpərvərliyə ən ali sevgilər daxildir-Allaha sevgi, valideynə sevgi və sairə... Öncə isə Vətəndir.

Tarixin Vətən dərsləri

Bu gün dünya xalqları sırasında iqtisadi-siyasi və mədəni inkişaf səviyyəsi ilə layiqli yerini tutan, regionda söz və iradə sahibi olan Azərbaycan həm də özünün qəhrəmanlıq tarixi ilə fəxr edən, müstəqilliyini qorumağı bacaran və bu yolda şəhid olmağı şərəf bilənlərin Vətənidir.

Dədə Qorquddan bəri torpağı "əkməyi" və "qorumağı" bacaran Vətən oğulları qəhrəmanlığın şanlı səhifələrini yazmışlar. Onların döyüş yolu, Vətən qarşısında tarixi xidmətləri bu gün gənclərin milli-mənlik şüurunun inkişaf etdirilməsində və vətənpərvərlik tərbiyəsində müstəsna rol oynayır. Ona görə də hər bir gəncimiz xalqımızın qəhrəmanlıq tarixini öyrənməli və gələcək nəsillərə ötürməlidir.

Əlbəttə, qəhrəmanlıq tariximiz barədə çox deyilib, çox yazılıb. Əlimizdə tarixçilərin, səyyahların yurdumuz haqqında fikirlərini əks etdirən çoxlu sayda mənbə vardır. Bəzən tariximizi məqsədli surətdə yanlış yazanlar da olub, tarixi həqiqətləri etiraf edənlər də...

Həqiqət isə budur ki, milli ideologiya, din, əqidə düşmənlərimiz Azərbaycan torpaqlarının parçalanmasında, işğal siyasətinin davam etdirilməsində "tarixi xidmətlər" göstərmiş, ulu babaları I Pyotrun 2 mart 1711-ci il tarixli məşhur vəsiyyətinə sadiq qalmışlar.

Bütün bunlara baxmayaraq, xalqımız istiqlal yolunda yeni qəhrəmanlıq səhifələri yazmışdır. 1990-cı ilin 20 Yanvar tarixi Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, məfkurəmizin, azadlıq istəyiminin oyanışı günü oldu. Uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqımız azadlıq səsini ucaltmaqdan qorxmadı, suverenliyi uğrunda şəhidlər verdi.

İndiyə kimi ədalətli həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Silahlı Qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda göstərdiyi igidliklər, xalqımızın nümayiş etdirdiyi əzm və iradə, vətənpərvərlik çox böyük qəhrəmanlıq nümunəsidir.

Aprel döyüşləri isə Vətənini canından əziz sevənlərin, müasir gəncliyimizin, milli ideologiyamızın qələbəsi oldu. Bu, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış, xalqımıza bəxş edilmiş şanlı, misilsiz qələbə idi.

Qəhrəmanlar vətənpərvərlik simvollarıdır

Şifahi xalq ədəbiyyatımızdan, nağıl, dastan qəhrəmanlarımızdan üzü bəri tarixi şəxsiyyətlərimiz Cavanşir, Babək, Şah İsmayıl Xətai, Əliağa Şıxlinski, Həzi Aslanov, Mehdi Hüseynzadə... Macarıstanda Azərbaycan Bayrağının ermənilər tərəfindən təhqir olunmasına dözməyərək iradə nümayiş etdirən qəhrəman zabitimiz Ramil Səfərov, düşməni öz səngərində məhv etməyi bacaran Mübariz İbrahimov, onlarla digər qəhrəmanlarımız bu gün gənclərdə milli dərkin, milli şüurun formalaşmasında, vətənpərvərlik tərbiyəsində çox böyük nümunədir.

Milli ruhdan gələn vətənpərvərlik hissinin ölkənin milli təhlükəsizlik strategiyasının zənginləşməsinə yönəldilməsində liderlərin tarixi rolu əvəzedilməzdir. Əgər Türkiyədə XX əsrin əvvəlində bu missiyanı Atatürk həyata keçirmişdisə, XX əsrin sonunda bu ali vəzifə ümummilli liderimiz Heydər Əliyevə və sonra isə onun layiqli davamçısı İlham Əliyevə qismət olmuşdur. Xalqımızın cəlb edildiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinin bəlli edilməsi, haqqımızın BMT və digər qurumlarda eşidilməsi, müstəqilliyimizin möhkəmlənməsi, ordu quruculuğumuzun müasir səviyyəyə qaldırılması və ən nəhayət, Azərbaycan ordusunun 2016-cı ilin Aprel döyüşlərindəki zəfərləri Ali Baş Komandan İlham Əliyevin bu varisliyi davamlı inkişaf etdirməsinin təzahürüdür.

Qəhrəmanlıq tariximizin təbliğində vətəndaş cəmiyyətinin rolu

Vətənpərvərlik tərbiyəsində cəmiyyətin bütün təbəqələrinin üzərinə mühüm vəzifələr düşür. Bu səbəbdən vətəndaş cəmiyyətinin rolu əvəzsizdir. Çünki qəhrəmanlıq tariximizin daha geniş təbliği, nəticə etibarı ilə yeni nəslin milli mənlik şüurunun inkişaf etdirilməsində qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin imkanları kifayət qədər genişdir. Dövlətimiz də bu institutların hərtərəfli inkişafına diqqət və qayğı göstərməkdədir. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Gənclər Fondu, KİVDF tərəfindən Dövlət Konsepsiyası ilə müəyyən edilmiş istiqamətlər sırasında vətənpərvərlik tərbiyəsinə dair mövzular əsas yer tutur. Çünki torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir vaxtda, Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda, qloballaşmanın tarixin minillik ənənə və dəyərlərini sıxışdırıb çıxardığı bir dövrdə vətənpərvərlik tərbiyəsinin hərtərəfli dəstəklənməsinə həmişə ehtiyac vardır.

Regionlarda vətənpərvərlik tərbiyəsi yüksək səviyyədədir

Digər şəhər və rayonlarda olduğu kimi, Salyanda da gənclərin vətənpərvərlik tərbiyəsi işində cəmiyyət birlik nümayiş etdirir. Burada dövlətimizin Gənclər siyasətinin uğurla həyata keçirilməsində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin təmsilçiləri də hər zaman təşəbbüskarlıq göstərirlər.

"Ana Kür" ictimai birliyi artıq 10 ilə yaxındır ki, rayonda yeniyetmə və gənclərin zərərli vərdişlərdən və dini radikal meyillərin təsirindən uzaq olmaları, onların fiziki və mənəvi cəhətdən sağlam və vətənpərvərlik ruhunda inkişaf etmələri istiqamətində layihələr icra edir. Cari ildə də birlik Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş salyanlıların xatirəsinə həsr olunan tədbirlərin təşkili" layihəsini uğurla icra etmişdir. Rəhbəri bu sətirlərin müəllifi olan ictimai birlik layihənin icrası müddətində şəhidlərin xatirəsinə kütləvi idman və ekoloji tədbirlər keçirmiş, bir qrup gəncin Bakı şəhərində, Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin və Şəhidlər Xiyabanında həmyerlilərimiz, 20 Yanvar şəhidi Elçin İmanovun, Milli Qəhrəman Təbriz Xəlilbəylinin və Azərbaycanın ərazi bütövlüyünün müdafiəsində şəhidlik zirvəsinə yüksələn digər şəhidlərin məzarlarının ziyarətini təşkil etmişdir. Layihənin icra dövrünə ad günləri təsadüf edən Aprel şəhidi Rəşid Mehdiyevin, digər şəhid qəhrəmanlarımızın doğulduğu ünvanlarda və ailə üzvləri ilə birlikdə qeyd edilmişdir. Tədbirlər ictimai məzmun kəsb etmiş, yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynamışdır.

Rayon oxucularının ixtiyarına verilən "Qələbə" və müstəqil "Ana Kür" qəzetləri də mütəmadi olaraq vətənpərvərlik, xüsusən hərbi vətənpərvərlik mövzusuna həsr edilmiş silsilə materiallar çap edir. Düşmən tapdağı altında olan hər bir bölgəin işğal günləri barədə yazılar sadəcə xatirə xarakteri daşımır, həm də gəncləri hər an işğal olunmuş torpaqlarımızı azad etməyə çağırır. Qəzetlər ordumuzun döyüş qabiliyyətinin getdikcə möhkəmləndirilməsi, azad edilmiş torpaqlarımızda, Cocuq Mərcanlı kimi yurd yerimizə Böyük Qayıdışın başlanğıcını əks etdirən analitik yazılar çap edir.

Azərbaycan gəncliyinin gücü onun vətənpərvərliyindədir.

Vətənpərvərlik tərbiyəsi ardıcıl, fasiləsiz və vahid konsepsiya əsasında aparılan bir prosesdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı da bu məqsədə xidmət edir. Proqramda qarşıya qoyulan vəzifələrdən biri "gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi"dir. Bunun üçün isə mövcud potensialdan və ənənədən yaradıcı surətdə, peşəkarlıqla istifadə edilməlidir. Müharibənin hələ bitmədiyini nəzərə alaraq vətənpərvərlik tərbiyəsini hərbin tələb etdiyi məcrada aparmağa daha çox ehtiyac vardır.

Nəzərə almaq lazımdır ki, gənclərimiz arasında dövlət rəmzlərinin, milli bayramların təbliği onlarda şəxsi özünüdərkin və ictimailəşmə hisslərinin formalaşmasına kömək edir. Gənclərimizə Azərbaycan Respublikası Bayrağının, Himninin, Gerbinin mənşəyinin elmi səviyyədə çatdırılması və onların daşıdığı ideologiya daim aşılanmalıdır. Gənclərimiz milli dövlətçilik ideologiyası - azərbaycançılığın dövlət rəmzlərinə əsaslandığını bilməlidirlər. İlk vətənpərvərlik tərbiyəsi ailə dəyərlərinə əsaslansa da, təhsilimiz, bütövlükdə, cəmiyyətimiz yetişən yeni nəslin dövlətimizə sədaqətli, milli mənlik şüuruna malik gənclər kimi formalaşması üçün hərtərəfli çalışmalıdır. Qəhrəmanlıq tariximiz yeni forma və məzmunda təbliğ edilməli, ədəbiyyat, mədəniyyət və incəsənət əsərlərində vətənpərvərlik ideyalarına geniş yer verilməlidir. Milli vətənpərvərlik hisslərini təbliğ edən kinofilmlər, seriallar, sənədli filmlər, cizgi filmləri genişlənməlidir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 16 İyul 2017 -ci il tarixdə işğaldan azad edilmiş Cocuq Mərcanlıya səfəri çərçivəsində inşa edilmiş məktəblə tanışlıq zamanı demişdir: "Azərbaycan gəncliyinin gücü onun vətənpərvərliyindədir."

Dünya qloballaşır. Bir sıra ölkələrdə insanlığa, bəşəriyyətə nifrət hissi yayan irqçilik ideyaları yayılmaqda davam edir. Azərbaycan gəncliyi isə özünün intellektual səviyyəsi ilə dünyanı heyran etməkdədir. Son belə uğurlu işin nəticəsi gənc şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu adını qazanması oldu. Silahlı Qüvvələrimiz də torpaqlarımızın azad edilməsi üçün həlledici zəfər yürüşünə tam hazırdır. Vətənimizi, Azərbaycan torpaqlarını düşmən işğalından ürəyi Vətən üçün döyünən, vətənə pərvər olmağı bacaran, ərazi bütövlüyü, müstəqilliyi yolunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmağı şərəf bilən oğullar azad edəcəklər. Dünyanın 220 müstəqil ölkəsindən birinin vətəndaşı olmaq böyük xoşbəxtlikdir.

Rüstəm MƏLİKOV,
"Ana Kür" ictimai birliyinin sədri,
Ali media mükafatı laureatı.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.

Mənzillərinizi yangından qoruyun

Od insanları işıq və istiliklə təmin edir. Yer üzərində odsuz yaşamaq qeyri-mümkündür. Od hər yerdə və hər zaman lazımdır. Lakin odla düzgün davranmadıqda o insanın düşməninə çevrilir, ağılagəlməz müsibətlərə, faciələrə səbəb olur. İnsanlar od əldə etdikləri gündən ondan istifadə etdikləri kimi, onunla mübarizə də aparıblar. Yanğına qarşı mübarizə yanğın təhlükəsizliyi qaydalarına düzgün riayət etməkdən başlanır. Yaşayış evlərində yanğınlar od ilə ehtiyatsız davranmanın müxtəlif növlərindən, məişətdə işlədilən elektrik qızdırıcı cihazlarından, həmçinin təbii və mayeləşdirilmiş qaz ilə işlədilən cihazlardan düzgün istifadə edilmədikdə baş verir.

Artıq qışın kəskin soyuqları başlayıb. Yaşayış evlərinin isidilməsində elektrik və qaz cihazlarından, eləcə də müxtəlif yanacaqla işləyən sobalardan istifadə olunur. Bütün bunlar mənzillərdə yanğın təhlükəsizliyi qaydalarına vətəndaşlar tərəfindən əməl olunmasına daha çox məsuliyyət tələb edir. Uşaqların od ilə dəcəlliyi mənzillərdə yanğınlara səbəb olur. Uşaqları mənzildə və yaxud soba olan otaqda tək qoyub qapını bağlamaq olmaz, yanmaqda olan sobaya və qızdırıcı cihazlara nəzarət etməyi onlara tapşırmaq olmaz.

Qış mövsümündə elektrik verilişində bəzi hallarda fasilələr yarandığından mənzilləri işıqlandırmaq məqsədilə şamdan və neft lampasından istifadə edirlər. Bu zaman adi ehtiyat tədbirləri tamamilə unudulur. Bəzən vətəndaşlar tərəfindən mənzillərdə şamdan istifadə edərkən şam yanmayan altlıqlar üzərində deyil, papiros və ya kibrit qutuları üzərində, stolda və ya pəncərə altı taxta üzərində yapışdırılaraq yandırılır, eləcə də onları nəzarətsiz qoyub gedirlər. Bu zaman şam yıxıla bilər, əgər yanmaqda davam edərsə, yanğın onun altındakı yanar konstruksiyalara keçərək inkişaf edər. Bəzən də şamları istilik nəticəsində parçalana bilən altlıqlar üzərində qoyurlar ki, nəticədə şam yanıb qurtararkən öz altlıqlarını sındıraraq yanğının baş verməsinə səbəb olur. Odur ki, mənzillərdə şamdan istifadə edərkən, onları sabit metal şamdana taxmaq lazımdır. Təhlillər göstərir ki, baş vermiş yanğınların bir hissəsi elektrik avadanlıqlarının quraşdırılması və istismarı qaydalarına düzgün riayət edilməməsi nəticəsində baş vermişdir.

Hər bir vətəndaş bilməlidir ki, qısa qapanma və həddən artıq yüklənmə nəticəsində mənzillərdə baş verəcək yanğınların qarşısını almaq üçün müəyyən yükə hesablanmış əriyən qoruyucu və ya avtomatik açar quraşdırılmalıdır. Qısa qapanma və ya həddən artıq yüklənmə olduqda qoruyucunun əriyən məftili, naqillər təhlükəli temperatura çatmamış qırılır və təhlükənin qarşısı alınır. Əsasən yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı vətəndaşlar elektrotexniki norma və qaydaların tələblərini pozurlar. Belə ki, həmin işlərin mütəxəssis elektriklər tərəfindən deyil, özləri və ya digər bu işi bilməyən insanlar tərəfindən çəkilməsinə və qurulmasına yol verirlər. Bu zaman elektrik xətlərinin yanar konstruksiyalar üzərində çəkilməsi, qoruyucu və avtomatların düzgün olmayan yerlərə bərkidilməsi xətlərdə baş vermiş hər hansı qəza zamanı yanğınlarla nəticələnir.

Qaz balonları qızdırıcıları cihazlardan ən azı bir metr kənarda yerləşdirilməlidir. Belə balonları qızdırmaq, zirzəmidə saxlamaq qəti qadağandır. Mənzillərinizdə qaz sızmasını hiss etdikdə ümumi qaz kranını bağlamaq, mənzilin havasını təmizləmək üçün qapı-pəncərələri açaraq hava cərəyanı yaratmaq lazımdır.

Qış mövsümündə bir çox yaşayış evlərində bərk yanacaqla işləyən sobalardan istifadə olunur. Sobalar yanmayan və istilik keçirməyən altlıqlar üzərində qurulmalı, onun qalama qapısı önündə döşəməyə 70x50 sm. ölçüdən kiçik olmayan metal təbəqə ilə mismarlanmalıdır. Hər bir vətəndaş yanğın təhlükəsizliyi qaydalarına düzgün əməl olunmasına görə məsuliyyət daşıyır.

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi.

2018-ci ildə Salyan rayon prokuroru tərəfindən vətəndahların yerlərdə qəbulunun keçirilməsinə dair QRAFİK

№	Qəbulun keçiriləcəyi yer	Qəbulun keçirilməsi vaxt (tarix və saat)	Qeyd
1.	Salyan peşə liseyi	16.01.2018-ci il saat 10:00	Liseyin inzibati binası
2.	Şorsulu kəndi	13.02.2018-ci il saat 10:00	Şorsulu kənd orta məktəbi
3.	Salyan baytarlıq idarəsi	13.03.2018-ci il saat 10:00	İdarənin inzibati binası
4.	Qarabağlı kəndi	10.04.2018-ci il saat 10:00	Qarabağlı kənd mədəniyyət evi
5.	Salyan suvarma sistemləri İdarəsi	15.05.2018-ci il saat 10:00	İdarənin inzibati binası
6.	Yenikənd kəndi	12.06.2018-ci il saat 10:00	Yenikənd kənd orta məktəbi
7.	Qaraçala qəsəbəsi	10.07.2018-ci il saat 10:00	Qaraçala qəsəbə orta məktəbi
8.	Salyan Gigiyena və Epidemiologiya Mərkəzi	28.08.2018-ci il saat 10:00	Mərkəzin inzibati binası
9.	Mil-Muğan kollektor İstismarı idarəsi	18.09.2018-ci il saat 10:00	İdarənin inzibati binası
10.	Aşağı Muğan kollektor Nasos istismarı idarəsi	16.10.2018-ci il saat 10:00	İdarənin inzibati binası
11.	Salyan rayon mərkəzi xəstəxanası	20.11.2018-ci il saat 10:00	Xəstəxananın inzibati binası
12.	Salyan rayon təhsil şöbəsi	18.12.2018-ci il saat 10:00	Şöbənin inzibati binası

"Qələbə" qəzetinə 2018-ci il üçün abunə kampaniyası başlanmışdır

Hörmətli oxucular!

Salyan Rayon İcra Hakimiyyəti və redaksiya kollektivinin təsisçiliyi ilə nəşr olunan "Qələbə" qəzetinə 2018-ci il üçün abunə yazılışı başlanmışdır. İlboyu dövlət bayramları, əlamətdar günlər, həmçinin rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən yeniliklər barədə müxtəlif janrlı yazılarla yaxından tanış olmaq istəyirsinizsə, abunə yazılışında iştirak etməyi unutmayın.

Qəzetin illik abunə qiyməti 40 manat, 6 aylıq isə 20 manatdır.

Qəzetimizə abunə pulu hesaba köçürməklə və ya redaksiyada nağd ödəməklə mümkündür. Əlaqə telefonları: (021) 255-23-68; 255-29-26.

3 dekabr - Ümumdünya Əlillər Günüdür

Əlillər cəmiyyətin layiqli üzvləridirlər

İnsanlar hamısı eyni olmur. Fiziki cəhətdən sağlam olanlarla yanaşı, əlillər və şikəstlər də vardır. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik vardır. Əlillik eyib sayılmamalıdır, çünki bu insanlar fiziki cəhətdən tam olmasalar da, onlarda nəcib ürək, saf insani keyfiyyətlər, yüksək bilik, bacarıq və intellektual qabiliyyətlər vardır. Beynəlxalq aləm də əlillərə qayğı və diqqəti artırıb. Onların hüquqlarının qorunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. 1992-ci il oktyabrın 14-də BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq Günü" kimi qeyd edilməsi haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

Hazırda dünya əhalisinin təxminən 15 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Azərbaycanda isə əhalinin 6 faizə qədəri əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud olan uşaqlardır. Ölkəmizdə əlillərin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilmişdir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər. Ulu öndər Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşırdı. Bu diqqət və qayğının 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi bu təbəqədən olan vətəndaşların rifah halının yaxşılaşmasına xidmət edən tədbirlərin ilbəil güclənməsinə şərait yaratmışdır.

Ölkəmizdə əlil vətəndaşlara qayğı prioritet məsələlərdən biridir. Bu işdə Heydər Əliyev Fondunun xeyirxah əməlləri də minlərlə insanımıza şəfa vermişdir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, diqqət və qayğısı sayəsində əlillərin sosial müdafiəsinin hüquqi cəhətdən tənzimlənməsində mühüm irəliləyişlər əldə edilib, bu sahədə yeni istiqamətlər, prioritetlər və məqsədlər müəyyənləşdirilib. Bir çox əlil evləri əsaslı təmir olunub, müasir standartlara tam uyğun olan yeni bərpa mərkəzləri yaradılıb.

Gənc yazarlarla görüş

Rayon mərkəzləşdirilmiş kitabxana sistemi və Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin təşkilatçılığı ilə mərkəzi kitabxanada "Gənc istedadlar sorağında" adlı tədbir keçirilmişdir. Tədbirdə gənc yazarlar Rauf Rəvan, Pərviz Əbil, Tofiq Əhməd, Rüfət Sabirli, Tural Xələfov və Həsən Kür öz şeirlərini oxumuşlar. Söylənilən şeirləri diqqətlə dinləyərək təhlil edən "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, rayon ziyalılar birliyinin sədri Allahverdi Piriyev, rayon MKS-nın direktoru Səidə Əliyeva, şairlər Əzizağa Məmmədli, Zabil Pərviz, tarixçi-müəllim Sahib Həsənov, təcrübəli mədəniyyət işçisi Əli Əlizadə, şəhər 2 saylı tam orta məktəbin ədəbiyyat müəllimləri Günel Orucova və Aygün Əzizova öz tövsiyələrini vermiş, poeziyanın çətin, məsuliyyətli, eyni zamanda, şərəfli yollarında gənc qələm sahiblərinə uğurlar arzulamışlar.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Mərkəzi kitabxanaya yeni kitablar daxil olmuşdur

Əsrimiz kompüter, internet əsri olsa da, texnika, texnologiya nə qədər inkişaf etsə də, bu, heç də kitaba olan sevgini, marağı, onun cəmiyyətdə olan rolunu azaltmır. Dünyagörüşümüzün hərtərəfli formalaşmasında, intellektual səviyyəmizin yüksəlməsində, müxtəlif məzmunlu informasiyalarla zənginləşməyimizdə çox qiymətli və dəyərli xəzinə, elmi biliklərin açarı olan kitabların rolu əvəzsizdir. Mütaliə ilə mütəmadi olaraq məşğul olan, kitablara ülfət bağlayan, bu kitabları böyük məhəbbətlə sevən insanlar üçün hər səhifə, hər vərəq o qədər doğmalaşır ki, hər gün kitablarla ünsiyyətdə olmaq onlar üçün mənəvi ehtiyaca çevrilir.

Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin mərkəzi kitabxanasına daxil olan 86 ədəd yeni kitab müxtəlif sahələri-təbiət, iqtisadiyyat, dilçilik, texniki, səhiyyə və din sahələrini əhatə edir. Bu kitablarda botanikanın ayrılmaz hissəsi olub ağac və kol bitkilərini öyrənən dendrologiya elmi, Azərbaycanda sahibkarlıq və milli iqtisadiyyatın inkişafında onun rolu, internet, kompüter və informasiya-kommunikasiya texnologiyaları sahəsində ən çox işlədilən söz, ifadə və xüsusi terminlərin ingiliscə açılışı, azərbaycanca qarşılığı və lazım gələndə izahı, ölçmə və nəzarətin üsul və vasitələri, texnoloji maşınlar, endokrin, tənəffüz sistemi, ürək, qan-damar xəstəlikləri, islam tarixində sanballı yeri və xidmətləri olan, bir fransız tarixçisinin "Bəşəriyyətin ən comərd adamı" adlandırdığı Həzrət Əlinin həyatı, tapındığı inanc və apardığı mübarizələr barədə ətraflı məlumatlar, zəngin bilgilər təqdim edilmişdir.

Sevinc QAÇAYEVA, mərkəzi kitabxananın oxu zalının müdiri.

Ziyalılar birliyinin hesabatı

Rayon ziyalılar birliyi rayonumuzun ictimai-siyasi həyatında yaxından iştirak edir. Birliyin üzvləri 2017-ci ildə rayon və respublika miqyaslı tədbirlərdə iştirak etməklə, ictimaiyyətin fikirlərini ifadə edən təklif və təşəbbüslərlə çıxış etmişlər. Birlik bu il də 600 baldan yuxarı nəticə göstərərək ali məktəblərə daxil olmuş məzunları, yubiley yaşları qeyd edilən üzvlərini Fəxri fərman və qiymətli hədiyyələrlə təltif etmişdir.

Bu günlərdə ziyalılar birliyinin hesabat yığıncağı keçirilmişdir. Birliyin sədri, Əməkdar müəllim Allahverdi Piriyev 2017-ci ildə rayonun ictimai-siyasi həyatında baş vermiş hadisələri xatırlatmış və ziyalılar birliyinin fəaliyyəti barədə danışmışdır.

Dəyirmi masa və çay süfrəsi arxasında keçən yığıncaqda birliyin üzvlərindən Avtandil Məlikov, Sahib Həsənov, Tariyel Atamalıyev, Rafiq Kərimov, Məhəmməd Ağayev, Rüstəm Məlikov və başqaları çıxış edərək ictimai birliyin hesabat ilindəki fəaliyyətini yüksək qiymətləndirmiş, rayonda aparılan abadlıq-quruculuq işlərinə, ümumilikdə Salyana göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmiş, həmçinin öz təklif və mülahizələrini söyləmişlər.

Hesabat yığıncağında birliyin fəal üzvlərindən olan Afət Yusif oğlu Ələkbərovun anadan olmasının 80 illik yubileyi ilə əlaqədar onun ünvanına xoş sözlər deyilmiş və yubilyara ziyalılar birliyinin Fəxri fərmanı təqdim edilmişdir.

Afət Ələkbərov təltifə görə minnətdarlıq etmiş, birliyin fəaliyyətinin daha da canlandırılması üçün əlindən gələni əsirgəməyəcəyini bildirmişdir.

Allah rəhmət eləsin

Salyan peşə liseyinin mühəndis-pedaqoji kollektivi iş yoldaşları Sərbiyyə Həsənovaya, qayınanası

FATMANİSƏ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin pedaqoji kollektivi, iş yoldaşları Mahiyyə Həsənovaya, həyat yoldaşı

FİRİDUN HƏSƏNOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Ölümün gözünə dik baxan oğul

Güllələr demədi geri qayıdın,
Hələ uşaqsınız, nə yaşınız var.
İsa İsmayılzadə.

Ananın balasından ayrı yaşamağı nə qədər ağrılı-acılıdırsa, Vətənsiz yaşamaq, böyüyüb boya-başa çatdığın elindən-obandan, doğma yurd-yuvandan perik düşmək də bir o qədər üzücü, sarsıdıcıdır. Vətənsiz yaşamaqdansa, ölümü üstün tutan oğullar xalqın ürəyində özlərinin əzəmətli, möhtəşəm heykəllərini qurur, ölümsüzlük zirvəsinə yüksəlirlər. Belə bir zirvədə qərar tutan oğullardan biri İlham Yaqub oğlu Adışirinov 1973-cü il dekabrın 3-də Salyan rayonunun Şorsulu kəndində dünyaya göz açmışdı. Kənd orta məktəbinin VIII sinfini bitirdikdən sonra Bakıda Maliyyə-Kredit texnikumunun mühasibatlıq şöbəsində təhsilini davam etdirmişdi. 1988-1990-cı illərdə hərbi xidmətdə olan İlham yemçilik-çəmənçilik idarəsində iqtisadçı kimi fəaliyyət göstərmişdi.

"Böyük Ermənistan" yaratmaq kimi özlərinin sərsəm, mürtəce planlarını reallaşdırmaq üçün heç bir abır-həya etmədən qonşularının torpaqlarına göz dikən erməni faşistləri Azərbaycanın əzəli, əbədi yurd yeri və ayrılmaz tərkib hissəsi olan doğma Qarabağımızı işğal etməyi qarşılarına məqsəd qoymuşdular. Bu mənfur, nankor qonşumuzun xam xəyallarını gözlərində qoymaq, onların layiqli cavablarını vermək üçün 1992-ci il oktyabrın 7-də digər mərd soydaşlarımız kimi İlham da cəbhəyə yola düşdü. Xeyli müddət idi ki, Füzuli bölgəsində torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanan İlham düşmənlə dəfələrlə ölüm-dirim savaşına girmiş, hər dəfə də bu döyüşlərdən alnıaçıq çıxmışdı.

1993-cü il yanvarın 13-də Uryandağ yüksəkliyi uğrunda qanlı döyüşlər gedirdi. 7 nəfər silahdaşı ilə birlikdə erməni qəsbkarlarına qarşı mərdliklə döyüşən cəsur həmyerlimiz azğın düşmənin 2 tankını, 1 BTR-ni, onlarla canlı qüvvəsini sıradan çıxarmışdı. Bu zaman az qüvvə ilə döyüşə atılan soydaşlarımız onlardan dəfələrlə çox olan erməni işğalçılarının mühasirəsinə düşür. Döyüşün qızğın yerində atılan güllələrdən biri İlhamın qarın nahiyəsini al qana boyayır. İgid eloğlumuz 20 yaşında şəhid olaraq əbədiyyətə qovuşur.

Yaşasaydın, 44 yaşın tamam olacaqdı. Lakin illər keçəcək, bu qoşa dördlərin yanında sonsuz sayda dördlər olacaq. Ona görə də biz sənə 44 yaşın deyil, sonu görünməyən yaşın, mübarək olsun, deyirik! Şübhəsiz, digər şəhidlərimiz kimi, sənin də ruhun bu gün şaddır. Çünki qüdrətli ordumuzun gücü ilə Üçrəngli Bayrağımız Lələtəpə yüksəkliyində vüqarla dalğalanır, Cəbrayıl rayonunun azad edilmiş Cocuq Mərcanlı kəndində həyat qaynayır, insanlar asudə, rahat yaşayır, fəaliyyət göstərirlər. Tezliklə digər işğal edilmiş torpaqlarımızda da Bayraqlarımızın ucaldılacağına indi heç kəs şübhə etmir.

"Erkən nikahlara qarşı maarifləndirməyə ailədən və təhsildən başlayaq" layihəsi çərçivəsində tədbir

Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin mərkəzi kitabxanasında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı (ADTGT) "Erkən nikahlara qarşı maarifləndirməyə ailədən və təhsildən başlayaq" layihəsi çərçivəsində növbəti tədbirini keçirmişdir.

Rayon gənclər və idman idarəsinin rəisi Araz Hüseynov gənclərin maarifləndirməsində önəmli rol oynayan belə layihəni həyata keçirən ADTGT-yə və bu layihəyə dəstək verən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna təşəkkürünü bildirdi.

ADTGT-nin sədri Asif Əsgərli layihənin məqsədinin regionlarda yeniyetmə, gənc qızlar və oğlanlar arasında erkən nikahların yayılmasına "Yox" demək, onların özlərini və valideynlərini bu cür zərərli addımlardan çəkindirmək, bölgələrdə müxtəlif strukturların iştirakı ilə ictimai qınaq, maarifləndirmə kampaniyasını həyata keçirməkdən ibarət olduğunu diqqətə çatdırdı.

Layihənin təlimçi-ekspertləri Gülnarə Bağırova və Dadaş Əhmədli layihənin məzmunu və mahiyyəti barədə danışaraq, çap olunan kitabça və sorğu anketi barədə tədbir iştirakçılarını məlumatlandırdılar.

Erkən nikahların fəsadlarından söz açan Salyan rayon polis şöbəsi yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun inspektoru, polis baş leytenantı Ənvər Ağayev övladlarını erkən nikahlara sövq edən valideynlərin məsuliyyət daşıdığını vurğulayaraq bu xoşagəlməz halın vaxtında qarşısının alınmasında inzibati üsullarla yanaşı, profilaktiki tədbirlərin də xüsusi önəm daşıdığını qeyd etdi.

Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, rayon ziyalılar birliyinin sədri Allahverdi Piriyev mövzu ilə bağlı çıxış etdilər.

Sonda tədbir iştirakçılarına ADTGT-nin sertifikatları təqdim edildi.

RİH-in məsul işçisi Sevinc Səmədova tədbirdə iştirak və çıxış etmişdir.

ELAN

"Salyan Nəqliyyat" ASC-nin idarə heyəti bildirir ki, ASC-nin səhmlərinə yenidən sahib olanların on gün müddətində idarə heyətində qeydiyyatdan keçməsi vacibdir.

ASC-nin növbəti yığıncağı 09.01.2018-ci il saat 11:00-da cəmiyyətin Salyan rayonu Noxudlu kəndində yerləşən inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: 050-362-57-20

"Salyan Nəqliyyat" ASC.

ETİBARSIZDIR

Salyan şəhəri, T.Davudzadə küçəsi, 31 ünvanında yaşayan Ağalarov Vaqif Kamil oğlunun adına verilmiş Qeydiyyat nömrəsi 532, kitab-1, səhifə 134-də qeydə alınmış Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 7 yanvar 1998-ci il tarixli 01 saylı qərarı ilə Salyan rayonu Cəngən kənd sakini Hüseynov Əliağa Gülhüseyn oğlunun və ailə üzvlərinin adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-0044; kod-80908038) itdiyi üçün etibarsız sayılır.

Arbatan bələdiyyəsinə məxsus RX 0964154 saylı, 809012001864 reyestr nömrəli 0,12 ha həyətyanı torpaq sahəsinə 29.11.2016-cı il tarixdə verilmiş Reyestrdən Çıxarış (RX 0964154) və Plan Ölçü itdiyi üçün etibarsız sayılır.

Salyan şəhər Ə.Hüseynzadə küçəsi, 41 nömrəli evdə yaşayan Hüseynova Elnurə Seyidağa qızına 02 iyun 1988-ci ildə Salyan rayon musiqi məktəbinin fortepiano ixtisası üzrə və məktəbi bitirməsi haqqında verilmiş 070 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: R.S.Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 675. Sifariş: 37-38
Qəzet redaksiyanın kompüter ərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143 VÖEN:7000080071

Məsul növbətçi: L.H. Nəsirova